# Azadlığa, müstəqilliyə aparan yol

Bizi qanlı 20 Yanvar faciəsindən 23 il ayırır. Bu faciə 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə baş vermişdir.

Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərin əvvəllərində respublikada siyasi hadisələr gərginləşir, xalq öz müstəqilliyi uğrunda ölüm-dirim savaşına çıxır, ədalətin qələbəsi, müstəqilliyin bərpası, müdafiə olunmayan hüquqlarının qorunması naminə ayağa qalxırdı.

1980-ci illərin ikinci yarısında SSRİ-də «yenidənqurma» siyasəti nəticəsində mərkəzdən qaçan qüvvələrin fəallaşdığı vaxt erməni amilindən şər imperiyanı dağıtmaq istəyən dövlətlər də geniş bəhrələnməyə çalışdılar. «Erməni genosidi» faktı 1987-ci ilin iyulun 18-də Avropa Parlamenti tərəfindən tanındı. «Erməni genosidi» qurbanlarının xatirə günü təsis edildi. Həm Rusiya, həm də Avropa tərəfindən himayə olunduqlarını görən erməni millətçiləri türk soyqırımına, terrora əsaslanan qanlı siyasətlərini—«Böyük Ermənistan dövləti» yaratmaq kimi sərsəm xülyanı reallaşdırmaq cəhdlərini yenidən fəallaşdırdılar.

1987-ci ilin oktyabr ayında Heydər Əliyevin SSRİ rəhbərliyində tutduğu yüksək vəzifədən uzaqlaşdırılması ermənilərin öz niyyətlərini reallaşdırmaq ümidini artırdı. Rəsmi Moskva 1987-ci ilin noyabrında Parisdə dövlət başçısının əsabələrindən biri olan akademik Aqanbekyanın dili ilə Qarabağ hərəkatına müsbət münasibətini, qeyri-rəsmi olsa da, bütün dünyaya bildirməkdən çəkinmədi. Aqanbekyan «Hümanite» qəzetinin 18 noyabr 1987-ci il tarixli sayında dərc olunmuş müsahibəsində Dağlıq Qarabağın Ermənistana verilməsinin məqsədəuyğun olmasını və bu barədə dövlət başçısına təklif verdiyini bildirdi.

1988-ci ilin dekabrından etibarən Qərbi Azərbaycanda yaşayan soydaşlarımıza qarşı deportasiya siyasətinin sonuncu mərhələsi başladı. Həmin il Ermənistan SSR «ərazisindən» (vaxtilə həmin kənd və rayonların bir çoxu Azərbaycana məxsus olub) öz dədə-baba yurdundan—185 kənddən və başqa yaşayış məntəqələrindən 230 min azərbaycanlı qovuldu, onlara məxsus 31.000 ev, şəxsi təsərrüfat, 165 kolxoz və sovxozun əmlakı talandı, 214 nəfər öldürüldü, 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncə verildi.

Bundan sonra ermənilər deportasiya və soyqırımı siyasətini Azərbaycan ərazisində—Qarabağda və ona bitişik olan rayonlarda həyata keçirməyə başladılar. Bax, belə bir vaxtda əhali bu siyasətə etiraz olaraq küçələrə çıxır, mitinqlər təşkil edir, öz sözlərini deyirdilər.

SSRİ rəhbərliyi isə bu dövrdə ermənipərəst siyasət yeridərək, Qarabağda Arkadı Volskinin rəhbərliyi ilə xüsusi idarəetmə komitəsi yaradır. Bununla da Qarabağa rəhbərliyi faktiki olaraq Azərbaycan Hakimiyyətinin əlindən almışdı. Azərbaycanın o vaxtkı rəhbərləri isə Rusiyanın əlində oyunçağa çevrilmiş, heç bir iş görə bilmirdi.

Əhali isə küçələrə çıxır, öz haqqını tələb edirdi. Məhz belə bir vaxtda 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə Azərbaycanın o vaxtkı rəhbərlərinin köməkliyi və razılığı ilə təpədən-dırnağadək silahlanmış sovet ordusu torpaqlarının müdafiəsinə qalxaraq milli azadlıq, müstəqillik, demokratiya uğrunda mübarizə aparan dinc əhaliyə, əli silahsız insanlara qarşı amansız qırğın törədilmişdi. Həmin gecə Bakı küçələrində 131 nəfər günahsız adam qətlə yetirildi: ölənlər arasında qocalar, qadınlar, habelə körpə uşaqlar da vardı. Hadisələr zamanı 800-ə yaxın adam yaralandı, 841 nəfər həbs olundu, 200 ev və mənzil talan edildi, 80 avtomaşın yararsız hala salındı, xeyli şəxsi və dövlət əmlakı talana məruz qaldı.

Artıq 23 ildir ki, 20 Yanvar faciəsi Azərbayca xalqının tarixinə qəhrəmanlıq salnaməsi kimi yazılıb. Milli azadlıq hərəkatına qalxan yüz minlərlə insan Azərbaycanın müstəqilliyi uğrunda canlarını qurban verməyə hazır idi. Azərbaycanın müstəqilliyinin ilk təməli faciəli gündə qoyuldu. Bu qanlı faciəyə ilk dəfə öz münasibətini bildirən Azərbaycanın ümummilli lideri Heydər Əliyev olmuşdur. O qanlı yanvar günlərində həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı Daimi nümayəndəliyinə gələrək ölkədə qanlı hadisələr törədildiyini, çoxlu sayda insanların öldürüldüyünü bildirmiş bu hadisələri pisləmiş, hətta ilk azərbaycanlı olaraq Sov.İKP üzvlüyündən imtina etdiyini bəyan etmişdir. İstər faciə baş verəndə hakimiyyətdə olanlar, istərsə də sonradan hakimiyyətə gələnlər törədilmiş bu qanlı faciəyə hüquqi siyasi qiymət vermədilər.

Bu hadisələrə yalnız xalqın təkidli tələbi ilə ümummilli liderimiz Heydər Əliyev cənablarının hakimiyyətə qayıdışından sonra hüquqi siyasi qiymət verildi. Günahkarlar öz cəzalarına çatdılar.

Tanrı bütün şəhidlərimizə rəhmət eləsin.

**Oqtay MƏMMƏDOV.**

# Bu qan yerdə qalmaz

Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsində 20 Yanvar faciəsinin 23-cü ildönümü münasibətilə anım tədbiri keçirilmişdir. Tədbiri giriş sözü ilə mədəniyyət və turizm şöbəsinin müdiri Nargilə Qafarova acdı. 20 yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Tarix-diyarşünaslıq muzeyinin direk-



toru Xalis Məmmədov 20 Yanvar faciəsinə gətirib cıxaran amillər, rus ordusunun vəhşiliyi və qəddarlığı nəticəsində həlak olan soydaşlarımız barəsində danışdı. Bu qəddarlığın yerdə qalmayacağını bildirdi.

Mədəniyyət işçilərindən R. Xancanova, Z. Aslanov, A. Əliyeva, V. Söhbətova və digərləri cıxış edərək 20 Yanvarla bağlı təəssuratlarını bölüşdülər, tezliklə Qarabağ torpaqlarının azad olunmasına inandıqlarını, o günün cox da uzaqda olmadığını bildirdilər.

# Ədəbi-bədii kompozisiya

20 Yanvar faciəsinin iyirmi üçüncü ildönümü ilə əlaqədar Qəbələ rayon Gənclər və İdman İdarəsi müvafiq tədbirlər planına əsasən silsilə tədbirlər həyata keçirir. Bu istiqamətdə 16 yanvar 2013-cü il tarixdə FHN-nin «N» saylı hərbi




hissəsində ədəbi-bədii kompozisiya keçirilmişdir.

İlk öncə tədbir iştirakçıları hərbi hissədə yaradılmış 20 Yanvar faciəsi şəhidlərinin xatirəsinə həsr edilmiş guşəyə baxış keçirmişlər.



Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Sonra hərbi hissə komandirinin müavini İlham Əliyev tədbiri açıq elan etmiş, hərbi hissənin əsgərləri 20 Yanvar faciəsinə həsr edilmiş şerlər söyləmişlər.

Tədbirdə 150-dək şəxsi heyət iştirak etmişdir. Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov 20 Yanvar faciəsinin baş vermə səbəbləri haqqında ətraflı məlumat vermiş, bu faciəni doğuran o vaxtkı ictimai-siyasi hadisələr haqqında danışmışdır.

Daha sonra Qəbələ şəhər 4 saylı tam orta məktəbin müəllimi Mətanət Abdullayeva çıxış edərək Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olanların tarixə qəhrəmanlıq salnaməsi yazdıqlarını və onların xatirəsinin yaddaşlardan heç vaxt silinməyəcəyini bildirdi. Tədbir şəhər 4 saylı tam orta məktəbin şagirdlərinin hazırladığı ədəbi-bədii kompozisiya ilə davam etdirildi.

Tədbirin sonunda 20 Yanvar gecəsi baş verən hadisələri əks etdirən sənədli filmin nümayişi olmuşdur.

**Mübariz AĞAYEV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**
**Fotolar S. Umuyevindir.**

# Qanlı yanvar

Yanvar ayının 20-si Vəndam qəsəbəsində 1990-cı il 20 Yanvar-Hüzn Günü münasibəti ilə əlaqədar geniş tədbir keçirildi. Ərazi rəhbərliyi qəsəbə ağsaqqalları ilə birgə əvvəlcə Qarabağ şəhidlərinin abidəsi önünə gül qoydu. Sonra isə mərasim çay süfrəsi arxasında davam etdirildi. Qəsəbədəki 1 saylı tam məktəbin müəllimi Rəşad Əhmədov geniş məruzə söylədi. Sonra isə bələdiyyə sədri Asif Həşimov, mədəniyyət evinin direktoru Azər Azayev, ağsaqqallar qrupunun sədri Ağasəddin Nəsirov, şəhid atası Əlisahib Nəbiyev çıxış etdilər.

Ağabala Qarayevin Qurani-Kərimdən oxuduğu ayələrlə mərasim sona çatdı.

**A. AZAYEV,**
**Vəndam qəsəbəsi.**